**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QULAMRZA SƏBRİ TƏBRİZİNİN ELMİ, ƏDƏBİ VƏ İCTİMAİ FƏALİYYƏTİ

İxtisas: 5716. 01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: filologiya


İddiaçı: **Kifayət Əliheydər qızı Məmmədova**


fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I - 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Teymur Əkbər oğlu Əhmədov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Quliyev Elman Hilal oğlu**

filologiya elmləri doktoru, dosent
**Nailə Əbdül qızı Səmədova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Səadət İlyar qızı Vahabova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

Dissertasiya Şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının Elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Əlizadə Bayram oğlu Əsgərli**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX yüzilin sonlarında keçmiş Sovet İttifaqının süqutu və Azərbaycanın yenidən müstəqillik əldə etməsi vahid yaradıcılıq metodu olan sosializm realiziminin iflası, senzuranın ləğvi, azadfikirliliyin təşəkkül tapması, "dəmir pərdə"nin aradan götürülməsi ilə dünya ilə əlaqə və inteqrasiyanın güclənməsi bədii ədəbiyyatın, o cümlədən ədəbi tənqid və ədəbiyyatşünaslığın inkişafına təkan verdi. Məhz bunun nəticəsində əvvəllər araşdırılmasına yasaqlar qoyulmuş, mövzu və problemlərin öyrənilməsinə imkanlar yarandı. Güney Azərbaycan ədəbiyyatının ayrı-ayrı görkəmli şəxsiyyətlərinin və problemlərinin tədqiqata cəlb olunması səciyyəvidir.

Belə sənətkarlardan biri də Güney Azərbaycanın çağdaş ədəbiyyatında özünəməxsus mövqeyi olan Qulamrza Səbri Təbrizidir. O, yaradıcılıq xüsusiyyətləri ilə, heç kəsə bənzəməyən, tamamilə yeni poetik keyfiyyətləri ilə seçilən qələm sahiblərindən biridir. Bu orijinallıq və bənzərsizlik ədibin əsərlərinin həm məzmun, həm forma, həmçinin ideya-estetik aspektləri ilə səciyyələnir. Q.S.Təbrizi Güney Azərbaycan ədəbiyyatının ictimai fikir çərçivəsini genişləndirməklə, onu həyata, xalqın mübarizəsinə, mənəvi ehtiyaclarına, dərdlərinə, sevinclərinə yaxınlaşdırmaqla realizmin qələbəsini təmin etməkdə böyük xidmət göstərir.

Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Güney Azərbaycanda ictimai-siyasi fikrin, elmi təsəvvürlərin, tarixi baxışların, xüsusilə də əxlaqi-etik görüşlərin inkişafı bəlli ənənələr müstəvisində gerçəkləşməkdədir. Bu isə nəticə etibarilə maarifçilik meyllərini aktuallaşdırır.

Zülmü, yalanı, ədalətsizliyi açarkən, insanların yaşayışında, fəaliyyətində, düşüncəsində hökm sürən sosial tənhalığı ifşa edərkən Q.S.Təbrizi həqiqəti söyləyir, cəmiyyətə kömək etdiyinə inanır. Lakin Q.S.Təbrizinin xidməti ondadır ki, yalnız İran həyatının mənfi cəhətlərini göstərməklə qalmır, tənqid etməklə kifayətlənmir, yaradıcılığı ilə yaşadığı həyatı hərtərəfli işıqlandırır və mənalandırır:

Q.S.Təbrizinin yaradıcılığı müasirliyi və novatorluğu ilə seçilir. O, əsərlərində mənsub olduğu xalqın keçmişini və bügününü yalnız əks etdirməklə kifayətlənmir, həm də arzu və ideallarının tərənnümçüsü olmağı, gələcəyə nəzər salaraq onun möhtəşəm lövhələrini canlandırmaq məramını izləyir.

Q.S.Təbrizi əksər şeirlərdə həqiqətin fəlsəfəsini əks etdirir, bədii ümumiləşdirmə yolunu tutaraq həyatın, cəmiyyətin, mövcudluğun mahiyyətin poetik bir dillə aşkarlamağa çalışır. Məhz buna görə də Q.S.Təbrizi sənəti zəmanənin sınağından çıxaraq yeni nəsillərin də ürəyinə yol aça bilmişdir. Azərbaycan, İran, ingilis oxucusu onu ehtiramla sevərək, dərindən düşünərək mütaliə edir və həyatının ehtiyaclarına cavab verən hikmətlər tapır. Məhz buna görə də Q.S.Təbrizi bu gün Azərbaycan oxucularının tez-tez yada saldığı, müəyyən münasibətlə əsərlərinə müraciət etdiyi ən sevimli şairlərdən və alimlərdən biridir.

Q.S.Təbrizi ədəbiyyatşünas alim kimi Azərbaycan ədəbiyyat tarixində parlaq simaların yaradıcılığına həmişə üz tutmuş, onların əsərləri haqqında elmi dəyərə malik məqalələr yazmışdır. Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Mirzə Ələkbər Sabir, İrəc Mirzə, Məhəmmədhüseyn Şəhriyar, Səməd Behrəngi, Qulamhüseyn Səidi, Həmid Nitqi və b. haqqında yazılan məqalələrində bəhs olunan sənətkarların yaradıcılığının müəyyən aspektlərinə, konkret məqamlarına toxunulur.

Dünya mədəniyyəti çox mürəkkəb yolla inkişaf etmişdir. Və bu yalnız bədii yaradıcılığın yeni nümunələrinin meydana çıxması hesabına yox, eyni zamanda klassik irsin daha dərin və müasir baxımdan öyrənilməsi, mənalandırılması ilə də əlaqədar olmuşdur. Azərbaycan xalqının bədii irsində onun kədəri, sevinci, arzusu və tarixi əks olunmuşdur. Elə buna görə də bədii irs hər hansı nəsil üçün mənəvi və emosional təcrübənin daimi, canlı mənbəyi kimi yaşayır. Q.S.Təbrizinin klassiklərin yaradıcılığına, fikir, düşüncə və baxışlarına münasibəti bir də ona görə diqqətəlayiqdir ki, o yalnız öz dövrünün bədii təfəkkürünü, idrak xüsusiyyətlərini deyil, onların dövrünü də əks etdirə bilir.

Bütün bu cəhətlər Q.S.Təbrizinin ədəbi-bədii və elmi-publisistik yaradıcılığına həsr olunmuş dissertasiyanın aktuallığını şərtləndirir.

İndiyədək Q.S.Təbrizinin yaradıcılığı ilə bağlı müxtəlif səpkili tədqiqat işləri yazılmışdır. Müxtəlif dövrlərdə Əzizə Cəfərzadə, Balaş Azəroğlu, Tofiq Hacıyev, Sabir Nəbioğlu, Qara Namazov, Azad Nəbiyev, Kamil Vəli Nərimanoğlu, Tofiq Hüseynoğlu, Almaz Əliqızı, Nazim Rizvan, Teyyub Mənsimoğlu, Məmməd Aslan, Elçin İsgəndərzadə, Tomris Babanlı, Pərvanə Məmmədli, Saminə Hidayətqızı, Qüdrət Piriyev və başqaları Q.S.Təbrizinin zəngin və çoxcəhətli yaradıcılığı ilə bağlı fikir və düşüncələrini ifadə etmişlər.

Bu tədqiqatlar içərisində Sabir Nəbioğlunun "Təbrizdən başlanan dünya" və "Əsrin övladı", Vaqif Sultanlının "Ömrün nicat sahili" , Teyyub Mənsimoğlunun "Qulamrza Səbri Təbrizi", Elçin İsgəndərzadənin "Şairin qürbət harayı" monoqrafiyaları[1] daha çox diqqəti çəkməkdədir.

Dünya miqyasında tanınan yazıçı və alimlərdən – Ə.Nesin, B.Dolbi, R.Vilyams, B.Morton, H.Nitqi, Y.Bronovski və başqaları da Q.S.Təbrizi yaradıcılığına bu və ya digər şəkildə münasibət bildirmişlər.

Azərbaycan müstəqillik qazanandan sonra Q.S.Təbrizinin elmi, bədii və ictimai fəaliyyətinin öyrənilməsi istiqamətində bir sıra tədqiqat işləri yazılmışdır. Bu tədqiqatlarda ədibin həyat və yaradıcılıq yolu müxtəlif aspektlərdən təhlil obyektinə çevrilmişdir. Lakin bütün bu tədqiqatlara baxmayaraq indiyədək Qulamrza Səbri Təbrizinin ədəbi-bədii, elmi-publisistik yaradıcılığı sistemli şəkildə tədqiqata cəlb olunmamışdır. Müdafiəyə təqdim olunan dissertasiya işi məhz bu zərurətdən yaranmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Qulamrza Səbri Təbrizinin ədəbi-bədii və elmi-publisistik əsərləri,

---

[1] Mənsimoğlu Teyyub. Qulamrza Səbri Təbrizi. Bakı: Şirvannəşr, 2002; Nəbioğlu Sabir. Əsrin övladı. Bakı: "Turan evi" nəşriyyatı, 2004; Yenə onun: Təbrizdən başlanan dünya. Bakı: Azərnəşr, 2010; Sultanlı Vaqif. Ömrün nicat sahili. Bakı: "Turan evi" nəşriyyatı, 2004; İsgəndərzadə Elçin. Şairin qürbət harayı. Bakı: "Vektor" nəşriyyatı, 2005

predmeti isə bu irsin elmi-nəzəri prinsipləri, ədəbi-estetik konsepsiyaları, mövzu-problem sahəsidir. Təhlil prosesində onun İngiltərə, Amerika, Türkiyə və Azərbaycanda nəşr olunan kitablarına, həyat və yaradıcılığı haqqında yazılan araşdırmalara istinad olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Q.S.Təbrizinin ədəbi-bədii, elmi və ictimai fəaliyyətinin çağdaş təfəkkür işığında dəyərləndirilməsidir. Bu məqsədlə aşağıdakı vəzifələr tədqiqat işinin diqqət mərkəzində olmuşdur:

– Q.S.Təbrizinin həyatı və ədəbi mühitinin başlıca məqamlarının aşkarlanması;

– Müəllifin Azərbaycan ədəbiyyatı tarixindəki ədəbi mövqeyinin müəyyənləşdirilməsi:

– Ədibin poeziyasının müasir Güney Azərbaycan ədəbiyyatında sərbəst şeir problemi kontekstində təhlil obyektinə çevrilməsi;

– Müəllifin poeziyasında siyasi lirikanın ideya-estetik məqamlarının elmi-nəzəri şərhi;

– Şairin poetik yaradıcılığının fəlsəfi aspektlərinin səciyyələndirilməsi;

– Tədqiqatçının müasir ədəbiyyat haqqında araşdırmalarının təhlil obyektinə çevrilməsi;

– Müəllifin Azərbaycan, İran və ingilis ədəbiyyatı klassikləri haqqında elmi-nəzəri mülahizələrinin ümumiləşdirilməsi;

– Ədibin publisistikasında humanizm, demokratiya və azadlıq ideyalarının səciyyələndirilməsi.

**Tədqiqatın metodları.** Dissertasiya işində tədqiq olunan mövzu ilə bağlı mövcud elmi-nəzəri qaynaqlara, ayrı-ayrı alimlərin fikir və mülahizələrinə istinad olunmuşdur. Tədqiqat prosesində əsasən müqayisəli-tipoloji və tarixi-müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Araşdırma zamanı Azərbaycan və dünya ədəbi-nəzəri fikrinin müvafiq tədqiqatlarından nəzəri- metodoloji müstəvidə bəhrələnilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar: 1.** Qulamrza Səbri Təbrizinin formalaşdığı ədəbi mühitin mürəkkəb xarakteri və belə bir

mühitin ədəbi üsluba təsiri məsələsi;2. Belə bir ədəbi-estetik və ictimai mühitdə Qulamrza Səbri Təbrizinin ədəbi və ictimai missiyası; 3. Qulamrza Səbri Təbrizinin həyat və yaradıcılığının mühacirət dövrü və diaspor fəaliyyəti. 4. Qulamrza Səbri Təbrizinin Şərq və Qərb ədəbiyyatı və mədəniyyətinin klassiklərinə münasibəti. 5. Qulamrza Səbri Təbrizi və Azərbaycan mühacirət ədəbiyyatının problemləri. 6.Siyasi lirika və ədəbiyyat məsələləri. 7.Qulamrza Səbri Təbrizinin poeziya və nəsr anlayışı və bunun Azərbaycan ədəbiyyatının tarixi ilə əlaqələndirilməsi. 8.Qulamrza Səbri Təbrizi və modern poeziya prinsipləri. 9. Qulamrza Səbri Təbrizinin yaradıcılığında poeziya və fəlsəfənin qarşılıqlı nüfuzu məsələləri.

**Tədqiqatın elmi yeniliyi.** Qulamrza Səbri Təbrizinin yaradıcılıq yolu geniş şəkildə araşdırılmış, haqqında bir neçə monoqrafiya, müxtəlif səpkili məqalələr yazılmışdır. Lakin indiyə qədər ədibin ədəbi-bədii və elmi-publisistik yaradıcılığı sistemli şəkildə araşdırılmamışdır. Məhz bu cəhət tədqiqatın elmi yeniliyini şərtləndirən amillərdəndir.

Dissertasiyanın diqqəti çəkən və təqdirə layiq cəhətlərindən biri də müəllifin yaradıcılığına xronoloji aspektdə yanaşılması, əks olunan problemlərin ədibin əsərlərində bədii əksinin təkamül prosesində izlənilməsidir.

İlk dəfə olaraq Q.S.Təbrizinin yaradıcılığı istər sosial, istərsə də mənəvi-əxlaqi problemlərin inikası kontekstində təhlilə çəkilmiş, habelə onun müxtəlif mövzuda yazdığı əsərlərinin günümüzlə bağlı cəhətlərinə toxunulmuşdur.

Tədqiqatın elmi yeniliyini şərtləndirən amillərdən biri də Q.S.Təbrizinin yaradıcılığına müasir milli-nəzəri fikir işığında yanaşılması, onun haqqında yazılmış əvvəlki tədqiqatlardakı yanlış və birtərəfli meyllərin tənqid olunması ilə bağlıdır.

Dissertasiyada Q.S.Təbrizinin ədəbi-bədii və elmi-nəzəri fəaliyyəti ilə bağlı məqamlar aşkarlanmış, həyatı, mühiti, diaspor fəaliyyəti müasir prizmadan geniş təhlil olunmuş, Azərbaycan ədəbiyyatının, elminin, ümumiyyətlə, mədəniyyətinin təbliğində və tanınmasında rolu şərtləndirilmiş, tərcümə məsələləri ilə bağlı qənaətləri səciyyələndirilmiş, müasir Güney Azərbaycan

ədəbiyyatında sərbəst şeirin inkişafındakı xidmətləri üzə çıxarılmış, poeziyasının özünəməxsusluğu, həyatiliyi və fəlsəfi aspektləri araşdırılmış, Azərbaycan, İran və ingilis ədəbiyyatının ayrı-ayrı görkəmli nümayəndələrinə həsr etdiyi elmi və publisistik məqalələri, habelə müsahibələri sistemli şəkildə dəyərləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işi eyni zamanda praktik əhəmiyyətə malikdir. Dissertasiyada əldə olunan nəticələr Qulamrza Səbri Təbrizinin yaradıcılıq irsinin və Güney Azərbaycan ədəbiyyatının müxtəlif problemlərinin aşkara çıxarılmasında elmi-nəzəri və praktik əhəmiyyət daşıyır.

Onun ayrı-ayrı müddəalarından çağdaş Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr və s. mövzularda yazılmış tədqiqatlarda mənbə kimi istifadə edilə bilər.

Dissertasiya işi metodoloji aspekti, təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma formulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri əhəmiyyət daşıyır.

Tədqiqat işindən həmçinin Azərbaycanın müxtəlif universitetlərinin humanitar fakültələrində ümumi və xüsusi kursların tədrisində yardımçı vəsait kimi istifadə edilə bilər.

Dissertasiya işi yalnız ədəbiyyatşünaslar üçün deyil, eyni zamanda tarix və mədəniyyətşünaslığın müxtəlif problemlərini öyrənən tədqiqatçılar üçün də əhəmiyyət daşımaqdadır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin nəzdində fəaliyyət göstərən koordinasiya mərkəzində qeydiyyatdan keçmiş, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsində hazırlanaraq yerinə yetirilmişdir. Tədqiqatın nəticələri Azərbaycanda və Ukraynada çıxan müxtəlif məcmuə, toplu və jurnallarda dərc olunmuş məqalələrdə, habelə elmi konfranslarda oxunmuş məruzə və çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil və ayrı-ayrı elmi problemlərin izah və şərhini

nəzərdə tutan paraqraflardadan, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Tədqiqat işi ümumilikdə 226268 işarədən ibarətdir. Giriş 12519 işarədən, birinci fəsil 68315 i.arədən, ikinci fəsil 66192 işarədən, üçüncü fəsil 72351 işarədən, nəticə isə 8568 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, tədqiqi tarixi, metodoloji əsası, nəzəri-praktiki əhəmiyyəti və başqa məsələlər haqqında qısa, yığcam şəkildə danışılmışdır.

Dissertasiyanın **"Qulamrza Səbri Təbrizinin ədəbi mühiti və diaspor fəaliyyəti"** adlanan *I fəslində* ədibin yaşadığı mühit, həyatının İran və Böyük Britaniya dövrü, diaspor fəaliyyəti təhlil obyektinə çevrilmişdir. Bu fəsil üç bölmədən ibarətdir.

**"Q.S.Təbrizinin İran dövrü həyatı və təhsil illəri"** adlı birinci bölümdə ədibin ömür yolunun ilk mərhələsi təhlil obyektinə çevrilmişdir.

Qulamrza Səbri Təbrizi 1934-cü ildə Təbrizdə dünyaya gəlmişdir. Həmin dövrdə şah üsuli-idarəsi hər vasitə ilə Azərbaycan türklərini öz ana dilindən məhrum etməyə çalışırdı. Bunun nəticəsində İranda sayca farslarla yanaşı ikinci ən böyük etnos olan bu xalqın dilində məktəb və mətbuat mövcud deyildi.

Qulamrza Səbri Təbrizinin uşaqlıq illəri də məhz bu dövrə, Güneydə milli oyanışa və Seyid Cəfər Pişəvərinin başçılığı altında yaradılan Azərbaycan Milli Hökuməti dövrünə təsadüf edir. Heç şübhəsiz ki, bu böyük tarixi hadisə onun gələcək həyat yolunda müəyyən izlər qoymuşdur. Ailədəki mənəvi dəyərlər də onun həyat yolunda yeni səhifələr açmış, xarakterinin formalaşmasında böyük rol oynamışdır.

Q.S.Təbrizi orta məktəbi bitirdikdən sonra 1953-1958-ci illərdə Təbriz Universitetinin ingilis və fars filologiyası fakültəsində təhsil alır. Gələcək mühacir ingilis dilini mükəmməl öyrənir və təhsilini ba-

şa vuraraq əvvəlcə Amerika hərbi idarəsində tərcüməçi, sonra isə orta məktəbdə ixtisası üzrə müəllim işləyir. Hərbi idarədə tərcüməçi işləyərkən o, imperialistlərinin İrandakı özbaşınalığının canlı şahidi olur.

Azərbaycan Milli Hökuməti və S.C.Pişəvəri hərəkatı dövründə baş verən azadlıq mübarizəsinin öndər nümayəndələrinin faciəsini gözləri ilə görməsi Q.S.Təbrizinin həyat yolunun və ictimai ideallarının müəyyənləşməsində mühüm rol oynamışdır. Xüsusilə, 1945-1946-cı illərdə Təbrizdə Azərbaycan bayrağının qaldırılması on iki yaşlı Q.S.Təbrizinin böyük sevincinə səbəb olmuşdur.

Bütün bunlar və bir tərəfdən də Təbriz mühiti Q.S.Təbrizinin addımbaaddım təqib edir. Digər tərəfdən də universitet təhsili onu qane etmir. Ona görə də təhsilini davam etdirmək məqsədilə İstanbula gəlir. 1959-cu ildə İstanbul Universitetinin magistraturasına daxil olan Q.S.Təbrizi Türkiyədə dövlət çevrilişi baş verdiyindən təhsilini yarımçıq qoyub yenidən Təbrizə qayıdır. Lakin burada da çox qala bilmir. Məlum səbəblər üzündən doğma vətənini də tərk etməli olur.

**"Q.S.Təbrizinin həyatının mühacirət dövrü"** adlanan ikinci bölümdə ədibin ömür yolunun qürbət illəri təhlil obyektinə çevrilmişdir.

Bioqrafiyasından anlaşıldığı kimi, 1960-cı ilin yayında İngiltərəyə üz tutan Q.S. Təbrizi bir il kollecdə oxuyub magistratura təhsili alır, daha sonra doktorluq dissertasiyası üzərində işləyir. Şübhəsiz ki, Qərb mühiti ilk dövrlərdə onun üçün problemsiz ötüşmür, çətinlik və məhrumiyyətlərlə üzləşməli olur.

Mühacirlik sırf subyektiv yaşantı olduğu qədər də obyektiv səbəblərdən qaynaqlanır. İnsanı həyata bağlayan bütün bağların qırılmasını göstərir. Həyata bəslənən bütün ümidlərin puça çıxmasını, imkanların yoxluğunu şərtləndirir. İnsan gözlədiyi, inam bəslədiyi hər şeydən tədricən uzaqlaşdığını, itirdiyini hiss edir. Bunlar mühacirliyin obyektiv və ya subyektiv izahlarının qeyri-məqbul olduğuna dəlalət edir.

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Tofiq Hacıyev şairin "Səssiz haray" kitabına yazdığı ön sözdə diqqəti qəribliklə bağlı məqama yönəldərək mülahizələrini belə

ümumiləşdirir: "Qulamrza Təbrizinin yaradıcılığında qəriblik mövzusu əsas yer tutur. Və deyəsən, o, şair kimi qələmini əlinə qürbətdə alıb. İş də budur ki, Q.Təbrizi qürbətdə ən çox ana dilinin həsrətini çəkib. Yaşamaq üçün qürbətdə hər şeyi var, udmağa havası, içməyə suyu, yeməyə çörəyi, geyməyə paltarı. Amma ana dilində danışmaq üçün bir adam tapmır. İyirmi il bundan qabağın söhbətidir – deyəsən, televiziyada bir söhbətində Qulamrza dedi ki, İngiltərəyə getdiyi ilk illərdə çörək pulundan gündə bir az qısıxdırıb toplayır və həftədə bir dəfə Təbrizlə danışırmış, anasının danışığına qulaq asırmış, özü az danışıb, ən çox anasını dinlərmiş."[2]

Qulamrza Səbri Təbrizi ziddiyyətlər, keşməkeşlər burulğanında, gərgin ictimai-siyasi hadisələr qoynunda yaşayıb-yaratmışdır. 1969-cu ildə Edinburq Universitetində görkəmli ingilis rəssamı, şairi və filosofu "Vilyam Bleykin həyat və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, bu illərdə "Vilyam Bleykin cəhənnəmi və cənnəti"[3] adlı monoqrafiya, "İran: Bir cocuğun hekayəsi, bir kişinin təcrübəsi"[4] adlı avtobioqrafik əsər, çoxsaylı məqalələr nəşr etdirmişdir. Uzun müddət mühacirətdə yaşadıqdan sonra Bakıya dönən ədib fəaliyyətini doğma Vətəndə davam etdirir. Vətən həsrətilə qovrulan ürəyinin bütün odunu, alovunu şeirlərinə köçürən Q.S.Təbrizinin, Bakıda "Vətən həsrəti" (1993), "Mənim iki dünyam" (1997), "Fikir dalğaları" (1997), "Həyat fəlsəfəsi" (1997) və digər kitabları nəşr olunmuşdur.

Mühacir şairin şeirləri vətənə məhəbbət və həsrət motivlərindən qanad taxmışdır. O yazır ki, "İnsan vətəndən çıxa bilər, Vətən insandan çıxa bilməz". Vətəndən ayrı düşənlərin, onun suyuna, havasına, torpağına həsrət qalanların taleyinin nə qədər acı, nə qədər dəhşətli olduğu Q.S.Təbrizi "Qürbət ömrü" şeirində bütövləşmişdir:

---

[2] Hacıyev Tofiq. Şairin poeziyası (Ön söz), Q.S.Təbrizi Səssiz haray. Bakı: "Turan evi" nəşriyyatı, 2009, s.11

[3] Tabrizi Gholamrza Sabri. The «Heaven» and «Hell» of William Blake. London, Lawrence and Wishart publishing. 1973, 366 p.

[4] Tabrizi Gholamrza Sabri. İran. A Child's Story, A Man's Experience. Edinburgh, Mainstream Publishing. 1989, 380 p.

Qürbətdə yaşamaq
Anadan, Vətəndən
ayrı düşməkdi,
Yad dildə danışmaqdı,
düşünməkdi.[5]

Şotlandiyada Arran adlı bir ada, şairə öz doğma yurdunu xatırlayaraq "Vətən" şeirini yazmağa ruhlandırmışdır:

Arran bir adadır
Şotlandiyada,
Ruhumu gətirir yada,
Gətirir xatirimə
uzaq elimi,
Eşidirəm –
daşlaşmış tarixdə
Susdurulmuş dilimi.[6]

Q.S.Təbrizi "Bütöv Azərbaycan" adlanan şeiri ilə Quzey və Güney Azərbaycan arasında poetik körpü yaratmışdır. Onun qələmindən çıxan odlu misralar Güney ağrısı, parçalanmış Azərbaycan yanğısı haqqında bədii düşüncələrdir:

Biri Arazın o tayında,
biri bu tayında.
Aralarında tikanlı
sərhəd məftilləri.[7]

Şeirin hər misrası ağrılı-əzablı həsrət hıçqırıqlarından yoğrulmuşdur. Bu sətirlərlə müəllif ədəbi olaraq qəlbində möhürlənmiş qürbət üzüntüsünü, Vətəni, günləri xatırlayaraq əritmək istəyir.

Q.S.Təbrizi Azərbaycanın bugünkü durumundan da söhbət açır, onun problemlərinə biganə qala bilmir, xüsusilə, Qarabağ dərdi şairin sağalmaz yarasına çevrilir. Düşmənə nifrət, Vətənin, millətin

---

[5] Təbrizi Q. S. Seçmə şeirlər. Bakı: Şirvannəşr, 2002, s.80
[6] Təbrizi Q.S. Mənim iki dünyam. Bakı: "Proqress" nəşriyyatı, 1997, s.23
[7] Təbrizi Q.S. Seçmə şeirlər. Bakı: Şirvannəşr, 2002, s.55

düçar olduğu məhrumiyyətlərə dözməyən qəlbin harayı “Düşmənə nifrət” şeirində əks olunmuşdur. “Cəlayi-Vətənlərə” adlanan şeirində isə Q.S.Təbrizi öz doğma yurdunu tərk edənlərə nifrət hissi ilə yanaşaraq sanki millətin azadlığı yoluna, istiqlaliyyəti yoluna çıraq tutmaq istəmişdir.

Durublar növbəyə,
Vətəni tərk etmək növbəsinə,
Parisə, Londona, Los-Ancelesə,
Hara gəldi gedirlər.
Təki qurtarsınlar
Vətənin dərdlərindən.[8]

Şair Azərbaycanın Güneyində doğma xalqının ağrı və əzablarını orijinal bir səpkidə ifadə edərək maraqlı bədii lövhə yarada bilir:

Bir gün yuxuda gördüm,
Təbrizin xiyabanları boyu
Süd axır su arxlarından,
Düşündüm, bu süd hardan gəlir?
Fırlandım o tərəfə,
fırlandım bu tərəfə.
Gördüm, səhərin yuxarı başında
Bir dəyirman daşı altında.
Xalq əzilir.
Və əzildikcə
Anadan əmdiyi süd
burnundan gəlir.
Onunçün Təbriz xiyabanlarıynan
süd axır.[9]

“Qulamrza Səbri Təbrizi mühacirət ədəbiyyatının başqa nümayəndələrindən fərqli olaraq gec də olsa doğma vətəninə - Təbri-

[8] Təbrizi Q.S. Yaranış. Bakı: Azərnəşr, 2012, s.89
[9] Təbrizi Q.S. Ümid çırağı. Bakı: Şirvannəşr, 2002, s.66

zə və Azərbaycana gələ bilir. O, harada olursa-olsun özünü Təbrizdən ayrı hiss etmir. O, Qərb mühitində yaşasa da, özünün millətinə xas olan adət və ənənəni bu gün də qoruyub saxlayır. O, azərbaycanlıya məxsus olan yaxşı nə varsa, onu ailəsində, əməlində qoruyub saxlayır. Qulamrza Səbri Təbrizi soyuna, kökünə ruhən bağlı bir insandır."[10]

Qeyd edək ki, bütövlükdə mühacirlik həyatı zəminində şairin yaradıcılıq yolu ideya, problem və məzmun baxımından fərqli bir ovqata köklənmişdir.

**"Q.S.Təbrizinin diaspor fəaliyyəti"** adlanan üçüncü bölümdə ədibin ictimai fəaliyyəti, daha doğrusu Azərbaycan diasporunun təşkilatlanması sahəsindəki xidmətləri araşdırılmışdır.

Azərbaycanın dövlət müstəqilliyinin elan olunması bütün dünya azərbaycanlılarının böyük sevincinə səbəb oldu. Yenicə azadlığına nail olan respublikamız xaricdəki Azərbaycan diasporları ilə sıx və qarşılıqlı əlaqələr qurmaq istiqamətində mühüm addımlar atmağa başladı. Bu baxımdan 1999-cu il dekabrın 4-də respublikamızın Londondakı səfirliyində üç Azərbaycan Cəmiyyətinin (Britaniya-Azərbaycan cəmiyyəti, Azərbaycan Cəmiyyəti və Azərbaycan Türk Cəmiyyəti) nümayəndələrinin görüşü keçirilmişdir. Görüşün nəticəsi kimi Böyük Britaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri arasındakı əlaqələrin inkişaf etdirilməsi, hökumət strukturları ilə lazımi kontaktların qurulması məqsədilə onların Koordinasiya Bürosu yaradılmışdır.

2000-ci ilin martında Bakıda Azərbaycan-Böyük Britaniya Gənclər Cəmiyyətinin əsası qoyulmuşdur. Təşkilat ölkələrimiz arasında gənclik, elm, mədəni əlaqələrin genişləndirilməsi sahəsində strateji addımlar atır.

Q.S.Təbrizi diasporun fəallarından biri kimi Qarabağ həqiqətlərinin obyektiv şəkildə dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli işlər görmüşdür.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün 31 dekabra təyin olunmasında əsas məqsəd diaspor istiqamətində görülən işlərə yekun vurmaq və növbəti il üçün işlərin planlaşdırılmasıdır. Zaman-

[10] Mənsimoğlu Teyyub. Qulamrza Səbri Təbrizi. Bakı: Şirvannəşr, 2002, s.13

zaman aparılan işlər öz bəhrəsini verməyə başlamış, azərbaycançılıq ideologiyasının təbliğ olunmasına və dünya azərbaycanlılarının malik olduğu milli gücün realizə edilməsinə imkan yaranmışdır. Bu müstəvidə Q.S.Təbrizinin fəaliyyi də təqdirəlayiqdir. Onun dəstəyi və ya təşəbbüsü ilə Birləşmiş Krallıqda yaşayan soydaşlarımız bir sıra mədəniyyət mərkəzləri, cəmiyyətlər və digər milli strukturlar yaratmışlar. Xüsusilə, diasporun təşkilatlanması istiqamətində mühüm addımlar atan bu strukturlar sayəsində milli problemlərimizin beynəlxaq arenaya çıxarılmasında müəyyən addımlar atılmışdır.

1998-cı ildə Azərbaycan prezidenti Heydər Əliyev İngiltərədə rəsmi səfərdə olduğu zaman Britaniyada yaşayan azərbaycanlılarla görüşündə Q.S.Təbrizi çıxış etmiş, Azərbaycan diasporunun fəaliyyəti ilə bağlı prezidentə hesabat vermişdir.

Azərbaycan prezidenti Heydər Əliyevin təşəbbüsü ilə 2003-cü ilin noyabrında keçirilən Dünya azərbaycanlılarının Birinci Qurultayı tariximizin əlamətdar hadisəsi kimi yadda qaldı. Qurultay milli dövlətçiliyimizin möhkəmlənməsində böyük rol oynayaraq qərarları ilə dünyada yaşayan azərbaycanlıları bir-biri ilə daha sıx birləşdirdi, əlaqələrini möhkəmləndirdi. Həmin qurultayda Q.S.Təbrizi Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının (DAƏŞ) sədr müavini seçildi.

Q.S.Təbrizi həmçinin bir müddət Dünya Azərbaycanlıları Konqresinin (DAK) sədri kimi fəaliyyət göstərmiş, diasporun təşkilatlanmasında ciddi işlər görmüşdür.

2008-ci il iyun ayının 21-22-də Belçikanın paytaxtı Brüsseldə Dünya Azərbaycanlılarının Konqresi özünün növbədənkənar X qurultayında həmrəylik nümayiş etdirərək bir daha özünün monolit təşkilat olduğunu təsdiqlədi. Parçalanmış digər qurumları ətrafına birləşdirən X qurultaydan dərhal sonra keçirilən DAK İH-nin ilk iclasında doktor Məmmədrza Heşti (ABŞ) və professor Paşa Qəlbinur (Azərbaycan) DAK-ın həmsədri seçildilər. Professor Qulamrza Səbri Təbrizi (Böyük Britaniya) isə diaspor fəaliyyətində xidmətlərinə görə DAK-ın fəxri sədri seçilmişdir.

Bütövlükdə Q.S.Təbrizinin diapor fəaliyyəti ardıcıllığı, səmərəliliyi və məqsədyönlülüyü ilə diqqəti çəkməkdədir.

**“Qulamrza Səbri Təbrizinin poeziyası**” adlı *II fəsildə* şairin yaradıcılığı çağdaş Güney Azərbaycan ədəbiyyatı kontekstində araşdırılmış, onun poeziyasının siyasi və fəlsəfi aspektlərinə toxunulmuşdur. Bu fəsil üç bölümdən ibarətdir. “**Müasir Güney Azərbaycan ədəbiyyatında sərbəst şeir problemi və Q.S.Təbrizinin poeziyası”** adlanan birinci bölümdə müəllifin poetik yaradıcılığı Azərbaycanın Güneyində yaranan ədəbi proses kontekstində araşdırılmışdır.

Güney Azərbaycan poeziyasında zaman keçdikcə sərbəst vəzndə yazılan əsərlərin sayının çoxalması və tədricən şeiriyyət aləmində yer tutması təbii hadisədir. Birinci, ona görə ki, heca vəzni Azərbaycan xalqının doğma vəznidir. İkinci isə, xatırladaq ki, elə yeni forma özünə hüquq qazanır və yaşayır ki, o, mütərəqqi məzmunun özündən doğsun. Həqiqətən də Güney Azərbaycan poeziyası üçün yeni mövzu və bundan yaranan yeni məzmun və mütərəqqi ideya özünü sərbəst vəzində yazılmış əsərlərdə doğrulda bilərdi. Bir sözlə, poeziyada sərbəst vəznin yenidən hüquq qazanması formal hadisə olmamışdır.

Tanınmış tədqiqatçı Elçin İsgəndərzadə yazır: “Qulamrza Səbri Təbrizinin şeirləri forma cəhətdən Qərb şeir üslubuna yaxın olsa da, məzmunu tamamilə Şərq psixologiyası, adət-ənənəsi, bütünlüklə bu gün çırpınan, döyünən ürək döyüntüləridir. Bu şeirlərdə zahirilik az nəzərə çarpar, amma iç məsələsi, islam adət-ənənəsi, türk mədəniyyəti ilə sıx surətdə bağlıdır. Fikirlər oynaq, duyğular həssas, hirsli, əsəbi, xəyallar çılğın, misralar enerji daşıyan naqillər kimi zərif titrəyişlidir. Şeirlərdəki həm forma, həm də ki, məzmun yeniliyi bu gün Azərbaycan şeirində mühüm yerlərdən birini tutur. Milli ruha, kaloritə, keçmişə əsaslanan, həm də müasir dünyadan bəhrələnən şeirlər bugünkü Azərbaycan şeiri haqqında istənilən ölkədə bütöv təsəvvür yarada bilər.”[11]

Sərbəst vəzn misraların həm həcmi, misra arası bölgü, həm də qafiyə sistemi etibarilə sərbəstliyə daha çox imkan verir. Heca və əruz vəznində misralar bəzən dalbadal, bəzən çarpaz şəkildə qafiyələndiyi halda sərbəst şeirdə qafiyənin yeri misralarda müəyyən, sabit

[11] İsgəndərzadə Elçin. Şairin qürbət harayı. Bakı: “Vektor” nəşriyyatı, 2005, s.56

deyildir. Burada qafiyə də, misranın həcmi də məzmundan, ritmdən asılıdır. Q.S.Təbrizinin şeirlərində olduğu kimi:

Azərbaycan!
Nağıllarımın ölkəsi,
Son yerim, son sığınacağım,
Sönmüş ocağımın istisi,
Qərib ürəyimin nisgili,
Həsrət dərdimin davası,
Altı qızıl,
Üstü qızıl,
Tüstüsü də qızıl məmləkətim,
Havam, suyum, bərəkətim.[12]

Q.S.Təbrizinin şeirində ahəng müxtəlif vasitələrlə yaranır. Fikirlərin bir-birini izləməsi çox zaman bu fikirləri ifadə edən söz və misraların ahəngdarlığına səbəb olur. Belə şeirlərdə nə axıcı misralar, nə də sistematik qafiyələr diqqəti o qədər də cəlb etmir. Şeirin əsas məzmununu yaradan fikirlər və bu məzmundan doğan ideya oxucunu əsərin sonuna qədər izləyir və beləliklə də o, bəzən özü də hiss etmədən müəyyən məzmun və fikir ahəngindən keçir:

AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyev şairin “Xudafərin” adlı şeirlər toplusuna yazdığı ön sözdə qənaətlərini aşağıdakı şəkildə ümumiləşdirir: “Qulamrza bəyin şeirləri modern düşüncə tərzinin məhsuludur, azad formada, sərbəst üslubda qələmə alınmışdır. Bu şeirlər istər Azərbaycanın Güneyində, istərsə də bu yurdun mühacirətdə yaranan ədəbiyyatı üçün təzədir. Çünki Azərbaycanın Quzeyindən  fərqli olaraq Güneyində sərbəst vəznli şeirin müəyyən ənənələri olsa da, hələ bu, məktəb yarada bilməmişdir. Ona görə də Qulamrza bəyin sərbəst üslubda yazdığı şeirləri bu ənənənin möhkəmlənməsinə çox kömək edəcəkdir”[13].

---

[12] Təbrizi Q. S. Seçmə şeirlər. Bakı: Şirvannəşr, 2002, s.27
[13] Nəbiyev A. (Ön söz). Təbrizi Q.S. Xudafərin. Bakı: “Turan evi” nəşriyyatı, 2005,s.4

Bilindiyi kimi, sərbəst şeirdə ancaq poetik fikirlər və məzmunun bilavasitə tələb etdiyi söz və ifadələrə yer verilir. Beləliklə də şeir onu yükləyən həmin əlavə söz və ifadələrdən xilas olur. Məsələn, şairin "Kəfən" adlı şeirinə nəzər salaq:

İnsan bürünüb
        dünya kəfəninə,
Dünya malı,
        sərvət, məqam,
Kəfən olub ona.
İçəridə ölübdü ruhu,
Yalnız nəfəs alır.
Əfsus bu ölülər
        hakimdirlər
                bizlərə.[14]

Sərbəst şeirdəki ahəngdarlıq və daxili ritm müxtəlif vasitələrlə əmələ gəlir. Q.S.Təbrizinin yaradıcılığında bu mənada daha çox müraciət edilən üsullardan biri ardıcıl gələn sözlərin eyni səslə başlanması, yəni alliterasiya üsuludur. Bu üsuldan şair danışıq dilində, yaxud xalq yaradıcılığında mövcud olan alliterasiyaları müasir şeirə, yeni məzmun və ideyalı poetik mətnə daxil edərək, ona xüsusi və fərdi poetik məzmun verməyə çalışır.

Ədibin qadına, anaya münasibətini poetik nümunələrində çox aydın şəkildə sezmək mümkündür. Qulamrza bəyin poeziyasında qadın ülvi bir varlıq olduğundan, ona qarşı hər hansı həqarət dözülməzdir, bağışlanılmazdır. Şeirlərin birində o, "Qadınsız həyat mümkünmü?" – sualını verir. Qadını qorumaq, onun hisslərinə, duyğularına, ləyaqətinə qiymət şairin rəhbər tutduğu əsas prinsiplərdəndir.

Qadın bir musiqi alətidir,
Çoxları bacarmaz çalmağı -
Naşı əlində qırılar
        simləri.[15]

[14] Təbrizi Q.S. Xudafərin. Bakı: "Turan evi" nəşriyyatı, 2005, s.334
[15] Təbrizi Q.S. Xudafərin. Bakı: "Turan evi" nəşriyyatı, 2005, s.21

“Qadın” adlanan bu şeirdə müəllif qadını musiqi alətinə bənzədir. Qadının naşı, kobud əllərə düşməsinə qıymır. O, yazdığı şeirlərdə qadın qəlbinin bütün nəcib və işıqlı duyğularını hər cür qabarma və çəkilmələri ilə ifadə edir. Q.S.Təbrizinin əksər şeirlərində isə doğma yurd və vətən qadın, ana timsalında təqdim olunur.

“İstəmirəm ana olam" şeirində Təbrizi ananın dili ilə danışır. O, ana qəlbinin təbii hisslərini elə sadə, real və aydın boyalarla təsvir edir ki, şeir ananın etiraf dolu poetik hesabatına bənzəyir.Kipriyi ilə od götürən ana gecə-gündüz yuxusuna haram qatıb, övladlarının dərdini çəkir, ömrünü yarpaq-yarpaq əridir.

Ana sevgisinin yorulmaz daşıyıcısı olan Q.S.Təbrizinin ürəyindən pərvazlanan şeirləri hər bir kəsə ana laylası kimi doğmadır.

**“Q.S.Təbrizinin poeziyasında siyasi lirikası”** adlı ikinci bölümdə müəllifin zəngin və çoxşaxəli yaradıcılığında siyasi lirika təhlil obyektinə çevrilmişdir.

Şərqin ən qədim ölkəsi olan Azərbaycanın nicatı barədə fikirlər XX əsr şairlərinin demək olar ki, əksəriyyətini həyəcana gətirən mətləblərdəndir. Məhz vətənin səadəti hissilə onlar ətrafa göz gəzdirəndə gördükləri çirkabları, vətən xainlərinin çirkin daxili aləmini ürəkdən qopan odlu sözlərin atəşinə tutmuşdur. Q.S.Təbrizi vətənində öz ana dilinin buxovlara salınmasına dözə bilmir. Dilinin azad olunmasını hər məsələdən üstün tutur və onun “Ana dili” şeirini həyəcansız oxumaq olmur:

Gün mənim,
Ay mənim,
Dərya mənim,
Tamam dünyalar mənim.
Amma günümü aldılar,
Ayı məndən ayrı saldılar.
Dəryanı da,
        dünyanı da qopardılar.
Çün –
        ana dilimi aldılar.[16]

---

[16] Yenə orada. s.5

Azad gələcəyə, əvvəl-axır zalımların məhv ediləcəyinə, qaranlığın çəkilib səhər açılacağına sarsılmaz inam şairlərin ürəyini xalq və vətən məhəbbətilə doldurmuşdur və bu məhəbbət də nəsildən-nəslə keçmişdir. Bu mənada vətən eşqi, xalqa məhəbbət insanın fikrini hərəkətə gətirən, iradəsini möhkəmlədən ecazkar qüvvədir və bu işıqsaçan qüvvə həmişə cənub şairlərini ilhamlandırmışdır. Q.S.Təbrizi də həmin şairlərin sırasındadır:

Biri Arazın o tayında,
Biri bu tayında.
Aralarında tikanlı sərhəd məftilləri.
Amma Xəzər birləşdirir sularıyla.
Toxunuram suya bu sahildə,
Duyuram ruhumu o sahildə.
Bir də ay, səma birləşdirir,
Günəş birləşdirir.
Havanın, küləyin qoxusu birləşdirir.
Necə bir vətənə iki deyəsən?[17]

Q.S.Təbrizinin şeirlərində siyasi ambisiyaların, sosial ədalətsizliyin insanın taleyinə və mənəviyyatına vurduğu yaralar orijinal bədii səpkidə əksini tapır. Şair bu ağrıları fərdi poetik üslubuna məxsus, bənzərsiz bir tərzdə ifadə edir. Azad insan ruhu Q.S.Təbrizini çox düşündürdüyündən şeirlərində bu mövzuya müxtəlif yönlərdən yanaşır, yaponiyalı dostuna olan münasibətini belə ifadə edir:

Dilimiz də ayrıdı,
dinimiz də,
irqimiz də, -
Amma doğmadı ruhlarımız.[18]

İran İslam Respublikasının rəhbərliyinin milli əsasda gedən bütün çıxışlara fərq qoymadan barışmaz mövqe tutması, hakimiyyətin sözündə və əməlində nəzərə çarpan uyğunsuzluq kəskin ictimai problemin - milli məsələnin həllinə əngəl törədən amillər olmaqla ölkədə

---

[17] Təbrizi Q.S. Seçmə şeirlər. Bakı: Şirvannəşr, 2002, s.55
[18] Təbrizi Q.S. Qürbət harayı. Bakı: Azərnəşr, 2003, s. 57

ayrı-ayrı millətlərin öz haqlı tələbləri uğrunda mübarizəsini son dərəcə çətinləşdirir. Bütün bunları Q.S.Təbrizi "İran" adlandırdığı şeirində iki misrayla belə yekunlaşdırır:

Cumublar dünya malına,
Qaldırıblar ruhaniyyət bayrağını.[19]

Q.S.Təbrizi Azərbaycanın Qarabağ probleminə ürək ağrısı ilə yanaşır. Şair Qarabağ münaqişəsi başlandığı gündən bütün rahatlığının pozulduğunu poetik bir dillə ifadə etmişdir. Eləcə də, qürbətdə yaşayan həmyerlilərimizin Azərbaycana kömək etməyə çalışmasını vətənpərvərlik amalı kimi səciyyələndirir. Ancaq şairin qənaətincə, xaricdəki soydaşlarımız öz işini görsə də, əsas məsələ xalqın birliyi, öz gücünə inamıdır.

Tədqiqatçı Sabir Nəbioğlu Q.S.Təbrizinin Qarabağ məsələsinə münasibətini belə səciyyələndirir: "Erməni təcavüzkarlarının törətdikləri Qarabağ faciələri, günün günorta çağı xarici ekstremist dairələrin havadarlığı ilə qonşu torpağına tarixi təcavüzlərin şairin işğalçılara qarşı köksündə tüğyan edən nifrəti alovlandıran bir atəşə çevrilir. Şair bu həyasız təcavüzü bütün varlığını oda yaxan, xalqının qəzəb və nifrətini coşduran bir atəş hesab edir. Bu təcavüzü düşmənin törətdiyi zülmət, dəhşət hesab edir. Onun təcavüzə məruz qalan torpaqların fəryadına, ailələrin oda tutulan yurdlarına biganə münasibətə inanmağı gəlmir. Şair hətta, müqəddəs ana qucağı hesab etdiyi Vətənin ağuşunda əsir olan, saralıb-solan güllərə laqeyd münasibət bəslənməsinə inanmır".[20]

Q.S.Təbrizi Qarabağ probleminin xalqımızın xeyrinə həll olunacağına inanır:

Əcəba, nədən sənə
Qarabağ deyirlər?
Yoxsa bəxtin qaradı,
Ya xalqın qara günə qalıb?[21]

---

[19] Təbrizi Q. S.Xudafərin. Bakı: "Turan evi" nəşriyyatı, 2005, s.59
[20] Nəbioğlu Sabir. Əsrin övladı. Bakı: "Turan evi" nəşriyyatı, 2004, s.67
[21] Təbrizi Q. S. Seçmə şeirlər. Bakı: Şirvannəşr, 2002, s.171

Şairin siyasi lirikası özünəməxsus, bənzərsiz ifadə tərzi ilə seçilir. Müəllif ən müxtəlif mövzuları siyasi aspektdə təqdim etməyi bacarır. Bəzən fəlsəfi səciyyə daşıyan mövzuların belə alt qatında siyasi çalarların olduğunu müşahidə etmək mümkündür. Şairin siyasi lirikasında bütün dünyanı düşündürən mövzulara toxunulur.

İkinci fəslin sonuncu **bölümü "Q.S. Təbrizinin şeir yaradıcılığının fəlsəfi aspekti"** adlanır.

Filosof-şairlərin həyatı, ona olan kənar təsirlər - təzyiqlər tədqiqatçıların qələmində yalnız obyektiv işıqlandırıldığı təqdirdə sonrakı nəsillər onlardan faydalana bilir. Gözəl bədii yaradıcı nümunənin meydana çıxması üçün şəxsiyyətin dünyagörüşü və zənginliyi əsasdır. Poeziyanı fəlsəfə, fəlsəfəni isə poeziya adlandıran yaradıcı şəxslərin sayının artdığı bir vaxtda Q.S.Təbrizinin hələ gəncliyindən şeir nümunələrinə müraciət etməsi onun zəngin və geniş dünyagörüşündən xəbər verir:

Nədən qalındı zindan
divarları?
Nədən pəncərəsizdi məhbəslər?
Bəlkə insanı qaranlıqla
qorxutmaq üçün?
Bəlkə təklik sınağına çəkmək üçün?
Yox, haqq səsini batırmaq üçün.
Bir də ruhunu qırmaq üçün.[22]

Şairin bir çox şeirlərinə romantik ovqat hakimdir. Bəzi şeirlərdə isə romantik düşüncələr cəmiyyətin eybəcərliyinə, dünyanın ədalətsizliyinə, qanunların çürüklüyünə qarşı yönəlmişdir.

Bir qürbət duyğusu var içimdə,
Yorur, yorur adamı əcnəbi dillər.[23]

---

[22] Təbrizi Q. S. Xudafərin. Bakı: "Turan evi" nəşriyyatı, 2005, s.38
[23] Təbrizi Q. S. Seçmə şeirlər. Bakı: Şirvannəşr, 2002, s.104

Şairin şeirlərinin mayası sözün geniş mənasında məhəbbətdən yoğrulmuşdur. Sətirlərin arasından boylanan bu məhəbbət, istilik, doğmalıq vətən həsrətindən, anaya və ana dilinə olan sevgidən, insanlara qayğıdan qadınlara, uşaqlara, təbiətə olan məftunluqdan irəli gəlir. Şair çətin anlarında özünü bu sıxıntılardan xilas etmək üçün insanların puç saydıqları, amma onun üçün mənəvi günəş qədər dəyərli olan xəyallarına müraciət edir, onları ruhunun qaranlıq guşələrinə işıq salmağa çağırır.

Milli idrakın inkişafında əvəzsiz olduğundan gerilikdən, fanatizmdən və ətalətdən çıxmaqda da fəlsəfənin rolu inkaredilməzdir. Bu mənada Q.S.Təbrizinin yaradıcı fəaliyyətini ictimai xidmət kimi də saymaq mümkündür.

Q.S.Təbrizinin fəlsəfi şeirlərində özünü büruzə verən məqamlardan biri də şairin sufi düşüncə və dünyagörüşündən təsirlənməsidir. Şübhəsiz ki, bu məqam bir tərəfdən ənənəyə bağlılıqdan və mütaliədən irəli gəlirsə, digər tərəfdən müəllifin bioqrafiyasından, keçdiyi həyat yolundan qaynaqlanır. Məhz bu prizmadan yanaşılarsa, Q.S.Təbrizinin fəlsəfi poeziyasında sufi məqamların olması tamamilə təbiidir.

İnsanın sosiallaşması prosesində onun düzgün fəlsəfi dünyagörüşünün formalaşması cəmiyyətdə qarşılıqlı təsirin ayrılmaz komponenti kimi əsaslandırılır. Q.S.Təbrizinin fəlsəfi dünyagörüşü də müdrik insanın həyata münasibətinin bütün formalarını özündə cəmləyir, ona konkret situasiyanı kənardan düzgün qiymətləndirməyə imkan verir.

**"Qulamrza Səbri Təbrizinin elmi, ədəbi və publisistik yaradıcılığı** adlı *III fəsildə* müəllifin ədəbi-tənqidi və publisistik əsərləri müxtəlif problemlər müstəvisində təhlilə cəlb olunmuşdur. Bu fəsil də üç bölmədən ibarətdir. "**Q.S.Təbrizinin müasir ədəbiyyat haqqında düşüncələri"** adlı birinci bölmədə ədibin ədəbi-tənqidi araşdırmalarında çağdaş ədəbiyyatla bağlı fikir və mülahizələri ümumiləşdirilmişdir.

Azərbaycanın istiqlaliyyət əldə etməsi ilə tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın tədqiqi və təbliğində hökmran olan ənənəvi stereotiplərin və yasaqların aradan qalxması "Kitabi-Dədə Qor-

qud” eposunun araşdırılması tarixində yeni bir mərhələnin əsasını qoymuş oldu. Qısa bir müddət ərzində dastana tamamilə yeni prizmalardan yanaşılmağa başlandı, onun əvvəllər təfsiri mümkün olmayan cəhətlərinə diqqət yetirildi.

Q.S.Təbrizi də “Kitabi-Dədə Qorqud” dastanına müasir prizmadan yanaşaraq “Qorqud xarakteri və Türk ruhu” məqaləsini dərc etdirmişdir. Onun qənaətincə: “Dədə Qorqud yer üzündə tarixin yaşayan ruhudur. İnsanın dahiliyi, yaradıcılığı, Allah mənbəyidir. O, bir ruhani insandır ki, insanlığın eybəcər keyfiyyətlərinə qarşıdır. Bir ruhani xüsusiyyətdir ki, nə elmləri, nə millətləri, nə də ayrı-ayrı kültürləri qarşı-qarşıya qoyur. O, əsrlər boyu yaradıcılığın konsepsiyasıdır. Başqa sözlə, Dədə Qorqud dəyişməyən qüdrət, xüsusiyyətdir insanlıq tarixində. O, yaradıcılıq qüdrəti, insani keyfiyyətləri, məhəbbəti yer üzündə cəm edir. Bir sözlə, o, türk xalqlarının ruhani atasıdır”.[24]

Ədibi tənqidə böyük dəyər verən ədibin fikrincə, “Tənqid elə bəsirət gözünə malik olmalıdır ki, onun nəzərləri həm keçmiş dövrlərin qatlarında olan incilərə nüfuz edə bilsin, həm onun yaşadığı günlərdə yaranan ədəbi-bədii əsərlərin xalqa nə səviyyədə xidmət etdiklərini məhək daşından keçirə bilsin. Bir də, əlbəttə, bu günün zəka və dərrakə karvanının keçməli olduğu mənzillərin aydın mənzərəsini yarada bilsin”.[25]

Müəllifin qənaətincə, müasir bədii-ideoloji hərəkatda, mövcud əxlaqi-tərbiyəvi sistemdə hər şeyi müasirliyin qlobal problemləri səviyyəsinə qaldırmaq, tarixi də, keçmişi də məhz müasir bədii düşüncə və oxucu təfəkkürü üçün konkret məna baxımından tədqiq və təhlil etmək qarşıda birinci dərəcəli vəzifə kimi durur. Başqa sözlə, ədəbiyyatşünaslıqda indiki müasirliyin ifadəsi və əlaməti də elə odur ki, onun həyata müdaxiləsi getdikcə daha fəal intensivlik kəsb edir, müasir mənəvi sərvətlər sistemində rolu artır; həqiqi böyük ədəbiyyatşünaslıq bu məqsədə həm bilavasitə müasir ədəbi prosesin, həm də klassik bədii təcrübənin materialında nail olur.

Q.S.Təbrizi “Müharibə və ədəbiyyat” məqaləsində yazır: “Şair, yazıçı xalqdan ayrı yaşaya bilməz, yaşasa da əsl yazıçı ola bilməz.

---

[24] Təbrizi Q.S. Zamanın nəbzi. Bakı: “Turan evi” nəşriyyatı, 2006, s.13-14

[25] Yenə orada. s.60

Çünki hamımız bir vücudun üzvüyük: o da insanlıqdır. Bir hiss məndə ermənilərin Azərbaycanın torpaqlarına son illərdə təcavüzü zamanı Xocalı soyqırımı törədiləndə yaşandı. Amma bu dəfə daha dərdli yaşadım bu faciəni. Çünki burada ümuminsani məsələlərlə yanaşı, mənim millətimin faciəsi dayanır gözüm qarşısında."[26]

Q.S.Təbrizi bədii yaradıcılıqla realizm, xəlqilik və ideyalılıq tələblərini dərindən əsaslandırmış və elmi-tədqiqat əsərləri ilə bu sahədə yeni bir dövr açmışdır. O, Güney Azərbaycan ədəbiyyatının ayrı-ayrı yazıçılarına həsr etdiyi "Səməd Behrəngi yaradıcılığında humanizm", "Mühacirət, yaxud ömrün qürub çağları", "İrəc Mirzə kimdir?", "Fikir mücəssəməsi", "Böyük mütəfəkkir", "Şərq və Qərb kültürünün vəhdəti və ayrılıqları" kimi dərin mənalı məqalələr yazmışdır. Bu əsərlər milli ədəbiyyatın inkişafında, həyatı düzgün göstərməsində, ictimai mühiti və əsrin ən canlı aktual məsələlərini əks etdirməsində müəyyən rol oynamışdır.

Q.S.Təbrizi ayrı-ayrı yazıçıların yaradıcılığını təhlil edərkən həmişə onu ədəbiyyatın taleyi ilə bağlayır, sənətin aktual və mühüm məsələlərini qaldırır. Burada onun xalqına, vətəninə olan sonsuz məhəbbəti, humanizm və yüksək azadlıq idealları əsas istiqamətverici rol oynayır. Ədibin ədəbiyyatşünaslıq əsərlərinin maraqla oxunmasının bir səbəbi də zəmanə ilə mənəvi bağlılıq, cəmiyyətin həyatını, mübarizəsini, ideallarını əks etdirməkdir. "Şəhriyarın Azərbaycan qarşısında ən böyük xidməti onda idi ki, o, şifahi xalq dilini poeziyada yüksək səviyyədə vəsf elədi. Təkcə "Heydərbabaya salam" poeması xalqımız üçün çox böyük abidədir. Allah onun ruhunu həmişə şad eləsin. Cavad Heyətə gəlincə, Güneylə Quzey arasında mədəni əlaqələr sahəsində onun gördüyü iş ölçüyəgəlməzdir. "Varlıq" jurnalını nəşr etmək, araya-ərsəyə gətirmək, bu günədək yaşatmaq böyük hünər tələb edir. Azərbaycan dilində məktəb olmayan bir rejimdə bu dildə jurnal buraxmaq asan deyil".[27]

Q.S.Təbrizi "Qulamhüseyn Saedi yaradıcılığında sosial-mənəvi problemlər" məqaləsində də məsələyə eyni prizmadan yanaşır: "Yenə həmin səpkidə yazılmış "Bəyəldə yas" əsərində Qulamhüseyn Sa-

[26] Təbrizi Q. S. Müdriklik fəlsəfəsi. Bakı: "Turan evi" nəşriyyatı, 2006, s.71
[27] Təbrizi Q. S. Müdriklik fəlsəfəsi. Bakı: "Turan evi" nəşriyyatı, 2006, s.173

edi bir kəndin timsalında xalqın ağır həyatını əks etdirir. ... Saedini başqa yazıçılardan fərqləndirən əsas cəhətlərdən biri onun ictimai və insani dəyərlərə əhəmiyyət verməsidir. Onun tənqidi-satirik üsluba söykənən yazıları kütləni hərəkətə gətirir, onu ayıldır, öz haqqı-hüququ uğrunda mübarizəyə səsləyir".[28]

Tarixi şəxsiyyətlərin fəaliyyəti yalnız irəli sürdükləri fikir və ideyaların böyüklüyü, qabaqcıllığı ilə deyil, bir də zamanın şəraiti ilə, hansı maneələri aradan qaldırması, hansı müqavimətləri qırıb, hansı əks-qüvvələrlə mübarizəyə girişməsi ilə ölçülür. Bu cəhətdən də Q.S.Təbrizi yalnız mütərəqqi ideyaların carçısı olmaqla qalmamış, bu ideyalara qarşı çıxan qaragüruhla mübarizə aparır: "Səməd Behrəngi yaradıcılığa başlayan kimi dərhal geniş oxucu kütlələrinin diqqətini cəlb elədi. Bəs bunun səbəbi nə idi? Hələ sağlığında o, Güney Azərbaycanın ayrı-ayrı şəhər və kəndlərində şöhrət tapmış, adı dillər əzbərinə çevrilmişdi. Yazıçının nakam ölümündən sonra əsərlərinin nəşri istər Güney Azərbaycanda və İranda, istərsə də dünyanın müxtəlif ölkələrində böyük maraq doğurdu. Bəs necə oldu ki, Səməd Behrəngi xalqın sevimlisinə çevrildi? Buna belə cavab vermək olar ki, Səməd öz yaradıcılığında elə dərin insani münasibətlərdən danışmış və onları elə sadə bir dillə əks etdirmişdi ki, həm kənddə, həm şəhərdə yaşayan xalq kütlələri öz müştərək dərdlərini və səslərini onun yazılarında gördülər və eşitdilər."[29]

Q.S.Təbrizinin dünya şöhrətli Türk yazıçısı Əziz Nesinlə yaxın dostluğu heç şübhəsiz ki, ədəbi-ictimai görüşlərinin formalaşmasında, qəlbindəki humanizm və azadlıq meyllərinin güclənməsində az rol oynamamışdır. "Əziz Nesinin hər söhbətində, hərəkətində dərin bir səmimiyyət və uşaqlıq gizlənmişdi. O, xalqının, dostlarının, qonaqlarının xoşluğuna sevinməyi bacarırdı. Türkiyə dərdə düşəndə o, uşaq kiim göz yaşı tökürdü. Onu sevindirmək çətin deyildi. Hər dəfə evinə gedəndə dünyanın müxtəlif yerlərindən qonaqların olduğunu görürdüm. O, türk xalqına böyük sevgi bəsləyirdi. Yanına qazax, türkmən, özbək, tatar və başqa türk xalqlarının yazıçıları gəlirdi. Onun hekayələrinin materialları gündəlik həyatdan doğurdu: polis-

---

[28] Təbrizi Q. S. Zamanın nəbzi. Bakı: "Turan evi" nəşriyyatı, 2006, s.31-32
[29] Yenə orada. s.20

dən, baqqaldan, lotudan, hakimiyyətin zorakılığından və s. o, hər şeyi zərrəbin altındaymış kimi görürdü."[30]

Q.S.Təbrizi tarixi romanlar müəllifi Əzizə Cəfərzadənin yaradıcılığını yüksək qiymətləndirir: "Əzizə Cəfərzadənin yaradıcılığı mənim üçün çox doğmadır. Bəlkə bu onun qadın olması ilə bağlıdır, bəlkə də xalqının, millətinin tarixinə, taleyinə dərindən bələdliyi ilə. Hər halda, onu tanıdığım gündən yaradıcılığını daim izləmişəm, yeni əsərləri ilə maraqlanmışam, uğurları ilə sevinmişəm. Qətiyyətlə deyə bilərəm ki, Əzizə xanımın yaradıcılığı Azərbaycan ədəbiyyatının təkrarsız səhifələrindən birini təşkil etməkdədir. Əzizə Cəfərzadənin "Eşq sultanı" romanı onun son əsəridir. Romanda Məhəmməd Füzulinin ömür yolu qələmə alınmışdır. Yazıçının bu mövzuya müraciət etməsi təsadüfi deyildir. Belə ki, Füzulinin yaradıcılığının mayasını ədəbiyyatın ən qədim mövzularından olan eşq mövzusu təşkil etməkdədir".[31]

Q.S.Təbrizi ədəbi-tənqidi yazılarında bədii həqiqətlərin əsasını həyat həqiqətlərində görür, sənəti bunsuz təsəvvür etmir. Onun fikrincə, sənətkar həyata söykənməli və insanları mübarizəyə ruhlandırmalıdır. O, ətrafında baş verən hadisələrə laqeyd qalmamalı, həyatdan qidalanaraq xalqın ruhunu duymalı və bunları yüksək bədii dolğunluqla əks etdirməlidir.

Üçüncü fəslin **"Q.S. Təbrizinin Azərbaycan, İran və ingilis ədəbiyyatı klassikləri haqqında fikirləri"** adlı ikinci bölümündə ədibin ədəbi-tənqidi yazılarında klassik ədəbiyyatla bağlı fikir və mülahizələri təhlil obyektinə çevrilmişdir. Q.S.Təbrizinin fikrincə, "Klassik Azərbaycan ədəbiyyatı mənim üçün abidədir. Mənim üçün Nizami nəinki Azərbaycan şairi, dünyanın şairidir. ... Nəsimidə bu özünü qabarıq göstərir. Nəsiminin fəlsəfəsi məni ondan ötrü cəlb elədi ki, o insanlıqdan başlayır, insanlıqla qurtarır. O, dünyaya yaradıcılıq gözü ilə baxır."[32]

Q.S.Təbrizinin yaradıcılıq yolu, ictimai bioqrafiyası cəmiyyətin ictimai-mənəvi həyatında tarixi inkişafın və hərəkətin əsas xəttini,

---

[30] Yenə orada. s. 17

[31] Təbrizi Q. S. Zamanın nəbzi. Bakı: "Turan evi" nəşriyyatı, 2006. s. 68

[32] Təbrizi Q. S. Müdriklik fəlsəfəsi. Bakı: "Turan evi" nəşriyyatı, 2006, s.130

dəyişiklikləri -dövlət, cəmiyyət və şəxsiyyət miqyasında demokratizmin, humanizmin qüvvətlənməsini, mənəvi-estetik amilin ictimai və ideoloji meydanda getdikcə artan mövqeyini, istedadın və istedadla yazılan əsərin milli sərvət rolunu, şəxsiyyətin, fəal əxlaqi mövqeyin əsas prinsipinə çevrilməsi prosesini qabarıq şəkildə əks etdirir.

Ədibin yaradıcılığında ilk növbədə ədəbiyyatımızın humanist potensialı aşkara çıxarılır və sənət əsərlərinin qiyməti məhz mənəvi-əxlaqi dəyərlər kimi açılır, şəxsiyyətin fəal əxlaqi mövqeyi prinsipi ilə klassik əxlaqi prinsiplərini – "daxili-mənəvi kamillik", estetik yetkinlik, vətəndaşlıq, ictimai gözəllik və vicdan kateqoriyaları arasında mənşə və ənənə əlaqəsi izlənilir, sənətin də qanunları əxlaqın və mənəviyyatın qanunları ilə həmahəng səslənir.

Q.S.Təbrizi bədii xammaldan elmi təhlil yolu ilə alınan obrazın həqiqiliyini həyatla və ənənə ilə yoxlamaq və ondan mənəvi-əxlaqi-estetik qənaət-dəyər hasil etmək bu vahid və yekdil prosesdə sonuncu mərhələni təşkil edir: "Cəlaləddin Rumi ilə Vilyam Bleyk müxtəlif dövrlərdə yaşayıb; birincisi XII əsrdə, ikincisi XVIII əsrdə. Aralarında altı yüzillik məsafə olmasına baxmayaraq, onların yaradıcılığını, fəlsəfi görüşlərini birləşdirən məqamlar çoxdur."[33]

Q.S.Təbrizinin ədəbi yaradıcılığında başqa xalqlara, xüsusilə ingilis xalqına, mədəniyyətinə qarşı böyük məhəbbət vardır. O, xalqları məhv etmək, onların mədəniyyət və dinini əllərindən almaq siyasətinə düşməndi. Azərbaycan kimi ölkələrdə böyük dövlətlərin məmurlarının yerli əhali ilə ikili standartlara uyğun rəftarına nifrət edir. Lakin o, bütün bu məmurların, həmçinin avropalılara düşmən olduqlarını görür.

O, bu müqayisələri ilə bir tərəfdən millətçi burjua ziyalılarının böhtan və fitnələrinin üstünü açır, o biri tərəfdən xalqlar arasında dostluq və qardaşlıq yaradır. Onun başqa millətdən olan qəhrəmanları yüksək mənəvi sifətlərə malikdir. İşgüzarlıq, sözdə möhkəmlik, səliqə, elm və mədəniyyətə qızğın meyl, sülhpərvərlik, başqalarının adət və ənənələrinə hörmət, sadəlik, açıq ürəklilik, yüksək əxlaq bu qəhrəmanların gözəl sifətləridir.

[33] Təbrizi Q. S. Zamanın nəbzi. Bakı: "Turan evi" nəşriyyatı, 2006, s.47

Müəllif ingilis yazıçısı Ceyms Oldriclə münasibətləri və əlaqələri haqqında yazır: “Mən Ceyms Oldriclə tanış idim. Yadımdadır, onun “Diplomat” romanı Azərbaycanla bağlı bir çox mətləblərə işıq salmışdı və yazıçı bu həqiqətləri yazandan sonra bəzi bədxahlar, Azərbaycanı sevməyənlər onu tənqid də etmişdilər. Lakin biz Azərbaycanla bağlı xaricdə yazılan və nəşr olunan bütün əsərlərə diqqəti artırmalıyıq, onların təbliğinə çalışmalıyıq”.[34]

Q.S.Təbrizinin məqalələri forma və məzmunca müxtəlif tərzdə yazılmışlar: ədəbi-nəzəri, tarixi-kulturoloji, təhlil və təqdim xarakterli. Hər məqalənin özünəməxsus üslubu, dil və ifadə tərzi, quruluş və süjet xüsusiyyətləri vardır. Lakin bir şey onları eyni ruhda, eyni ahəngdə birləşdirir: doğma ədəbiyyata və Azərbaycana sonsuz məhəbbətin ifadəsi! Bu nəcib hissin həmişə qüvvətlə təzahür edən sakit və səmimi coşğunluğu Q.S.Təbrizini həmin məqalələrin lirik qəhrəmanına çevirir. Lakin nə lirizm, nə də xəyal və düşüncələr təmkinli alimin, ardıcıl tədqiqatçı-realistin bədii-elmi üslubuna kölgə sala bilmir.

Bütövlükdə portret məqalələr Q.S.Təbrizinin yaradıcılığı üçün daha səciyyəvidir. Müəllifin N.Gəncəvi, İ.Nəsimi, İ.Mirzə, M.Şəhriyar, M.Məhmid, Q.Saedi, H.Nitqi, N.Rəfibəyli, Ə.Cəfərzadə, habelə C.Rumi, M.İqbal, Ə.Nesin, U.Bleyk, C.Oldric haqqında portret yazıları məhz peşəkar tənqidçi fırçası ilə çəkilmişdir.

Dissertasiyanın III fəslinin sonuncu bölməsi **“Q.S.Təbrizinin publisistikasında humanizm, demokratiya və azadlıq ideyaları”** adlanır. Burada ədibin publisistik yaradıcılığı mövzu və problem kontekstində təhlil obyektinə çevrilir.

Q.S.Təbrizinin əsərlərində ictimai motivlərin və vətəndaşlıq duyğularının nə qədər güclü olduğunu göstərmək üçün bir məsələyə - xalq və hakimiyyət məsələsinə münasibətini aydınlaşdırmaq kifayətdir. Publisistikasında daim zəmanəsinin zülm və ədalətsizliyini qamçılayan ədib ictimai quruluşa nəzər saldıqda bu iki qüvvənin qarşı-qarşıya durduğunu gö`rürdü: “Mən Pişəvərinin Təbrizdə gördüyü işləri xatırlayıram. Onun hökuməti mollaların etirazlarına baxmayaraq Təbrizin əvvəllər qəbiristanlıq olmuş hissəsində məktəblər tikdirirdi.

[34] Təbrizi Q.S. Müdriklik fəlsəfəsi. Bakı: “Turan evi” nəşriyyatı, 2006, s.266

Mollalar ölülərin ruhunun narahat ediləcəyi ilə bağlı səs-küy qaldırırdılar. Lakin ölülərin ruhu artıq xarabazarlığa çevrilmiş bu yerləri yəqin ki, çoxdan tərk etmişdi. Yadımdadır, məktəb tikilişi zamanı köhnə qəbristanlığın hər tərəfində böyük elektrik lampaları yandırılır və gecə gündüzə çevrilirdi. Fəhlələr üç növbədə bir-birlərini əvəz edərək iyirmi dörd saat fasiləsiz işləyirdilər. İşlərin belə görünməmiş sürətlə getməsi məni təəccübləndirirdi. Son dərəcə qısa müddət ərzində üç məktəb tikildi. Onların biri orta, ikisi isə ibtidai məktəb binası idi."[35]

Q.S.Təbrizinin publisistik əsərləri bütünlüklə yaradıcılıq düşüncələrdir. Bu düşüncələr yalnız ədəbiyyat haqqında düşüncələr deyil, ümumən həyat və sənət, ictimai fikir, milli mənəviyyat və mədəniyyət tarixi, idrak və düşüncə tərzi haqqında yığcam və aydın xülasələrdir: "Azərbaycanın Şimalında olduğu kimi, Cənubunda da nəsrin yaşı poeziyaya nisbətən cavandır. Lakin cavan olmasına baxmayaraq, nəsr daha çox mücərrəd, romantik bir dünyagörüşünün əksinə yönəlmiş poeziyadan fərqli olaraq xalqın problemlərinə, dərdlərinə və onu narahat edən məsələlərə həssaslığı ilə seçilir. Xüsusilə, XX yüzilin əvvəllərində baş vermiş siyasi hadisələr - Məşrutə inqilabı, iyirminci illərin azadlıq hərəkatı ədəbiyyatın, o cümlədən nəsrin sosial məzmun kəsb eləməsi üçün imkanlar açır. Zeynalabdin Marağayi, Mirzə Əbdürrəhim Talıbzadənin nəsr sahəsindəki uğurları ədəbiyyatın sonrakı dövrləri üçün stimula çevrilir."[36]

Q.S.Təbrizi xalqın maddi, mənəvi hüquqsuzluğuna ürəkdən acıyan, onun dərdlərini öz dərdi, ağrılarını öz ağrıları bilən böyük mütəfəkkirdir. Ətrafında olan minlərlə yoxsul və acları görməyərək öz şəxsi səadətini güdən insanlara o hədsiz nifrət bəsləyir. Onun fikrincə, aclar, ehtiyac içində çırpınanlar var ikən namuslu insanın rahat yaşaması mümkün deyildir: "Məni bir yazıçı kimi müharibələrin başlanma səbəbləri maraqlandırıb və bunun qarşısını almaq üçün ya-

---

[35] Təbrizi Q.S. Azərbaycanın Güneyi: tarixin canli mənzərələri. Bakı: "Turan evi" nəşriyyatı, 2006, s.123

[36] Təbrizi Q.S. Müdriklik fəlsəfəsi. Bakı: "Turan evi" nəşriyyatı, 2006, s.51

zıçının, qələm sahibinin üzərinə hansı vəzifələr düşdüyü düşündürüb. Doğrusu, bir şairin, yazıçının məqsədi nədir?”[37]

Q.S.Təbrizinin publisistikası başdan ayağa insana qayğı ruhundadır: “C.Rumi Şərqin, V.Bleyk isə Qərbin bilicisi idi. Bu iki mütəfəkkir bu qənaətdə idi ki, insan saf doğulmuş, yalnız sonralar şərait nəticəsində caniyə çevrilmişdir. Ruh özü dinamik şeydir. Ruhun azadlığına yetişmək üçün insan bir neçə mərhələdən keçməlidir. İnsan birdən-birə insan doğulmur. Tarix kimi insan özü də təkamül tapır. İnsan təbiətə bağlıdır, o, ruhani mərtəbəyə qalxması üçün təkamül etməlidir.”[38]

XX əsrin ikinci yarısında Azərbaycan demokratik fikrinin nümayəndələri, o cümlədən Q.S.Təbrizi xalqın azadlığı ideyalarını tərənnüm edərək, istismarın və zorakılığın bütün formalarına qarşı çıxaraq onları inkişaf etdirib daha da zənginləşdirmişlər.

Tədiqaqatın **“Nəticə”** bölümündə dissertasiyanın ayrı-ayrı fəsillərində irəli sürülən fikir və mülahizələr ümumiləşdirilmiş və gələcək perspektivlər müəyyənləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**

1. Qulamrza Səbri Təbrizinin yaradıcılığında vətən motivləri // Filoloji araşdırmalar, – 2000, XI kitab, – s. 82-88.
2. Mühacir ömrünün səhifələri //AMEA-nın Aspirantlarının Elmi Konfransı, – Bakı: 2001, – s.135.
3. Q.S.Təbrizi poeziyasında qadın, ana müqəddəsliyi // Filologiya məsələləri, // – 2002, №2 – s.60-69.
4. Azərbaycan ziyalıları İngiltərədə // Elmi axtarışlar, –2004, XI cild, – s.50-56.
5. Q.S. Təbrizinin siyasi lirikası // Dil və ədəbiyyat. BDU, Bakı, Beynəlxalq elmi-nəzəri jurnal, – 2011, №1 (77) – s.128-132.
6. Диаспорская деятельность Гуламрзи Себри Тебризи. Lirikası. “Гилея”, Випуск, 80 (N1) Київ-2014, с.248-251.

---
[37] Yenə orada. s.70
[38] Təbrizi Q.S. Zamanın nəbzi. Bakı: “Turan evi” nəşriyyatı, 2006, s. 47

7. Q.S. Təbrizinin şeir yaradıcılığının fəlsəfi aspekti. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat məcmuəsi", Xüsusi buraxılış, XXI cild, Elm və təhsil, –2014, – s.324-332.
8. Q.S.Təbrizinin publisistikasında humanizm, demokratiya və azadlıq ideyaları. Cənubi Azərbaycan ədəbiyyatı: Tədqiqlər. II, Bakı, Elm və təhsil, –2016, s. – 212-220.
9. Qulamrza Səbri Təbrizinin müasir ədəbiyyat haqqında düşüncələri // Filologiya məsələləri, – 2017, № 1, s.– 358-364.
10. Qulamrza Səbri Təbrizi. Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunur // Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 2018-ci il, 04-05 dekabr, s.89-90. Sumqayıt Dövlət Universiteti.
11. Güney ədəbiyyatında sərbəst şeir problemi və Qulamrza Səbri Təbrizinin poeziyası // "Xudafərin" jurnalı, – 2019, – s. 116-123.
12. Gulamrza Sabri tabrizi and Classical Literary Heritage, Вченнı Записки Таврійського Нацıонального Імені В.І.ВЕРНАДСЬКОГО Серія: Филология. Соцıальнı коммуникацїї Том 31 (70) № 3, 2020, Частина 2.
13. Urmiyə şairləri. Cənubi Azərbaycan ədəbiyyatı: Elmi tədqiqlər və araşdırmalar. Bakı, 2020.
14. Qulamrza Səbri Təbrizi və klassik ədəbi irs. Uluslararası Türkbilim öğrenci kurultayı, 5 Eylül 2020.

Dissertasiyanın müdafiəsi 10 iyun 2021-ci il tarixində saat $13^{30}$ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı, Hüseyn Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 7 may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2021

Kağızın formatı: 60x84 $^{1}/_{16}$

Həcm: 45 565

Tiraj:100